**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**ÜLVİYYƏ BƏZİM QIZI ABDULLAYEVA**

# TELEVİZİYA YARADICILIĞININ ETİK NORMALARI

**5720.01 – Jurnalistika**

Filologiya üzrə fəlsəfə doktoru
elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya Bakı Dövlət Universitetinin Televiziya və radiojurnalistikası kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **Qulu Məhəmmədqulu oğlu MƏHƏRRƏMLİ**
*filologiya elmləri doktoru, professor*

**Rəsmi opponentlər: Şamil Qiyas oğlu VƏLİYEV**
*filologiya elmləri doktoru, professor*

**ABİD Həmid oğlu TAHİRLİ**
*filologiya elmləri doktoru, professor*

**Aparıcı müəssisə: Bakı Slavyan Universitetinin Jurnalistika nəzəriyyəsi və təcrübəsi kafedrası**

Müdafiə «_27___» _12__ 2013-cü il saat «___»-də Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» ____________ 2013-cü ildə göndərilmişdir.

**D.02.181 Dissertasiya Şurasının elmi katibi, filologiya elmləri doktoru, professor: T.H.HÜSEYNOV**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Müasir kütləvi kommunikasiya vasitələri sistemində mühüm yer tutan televiziya (TV) bəşəriyyətin informasiya cəmiyyətinə yaxınlaşmasında və demokratik dəyərlərin yayılmasında həlledici rol oynayır. Əslində bu gün informasiya texnologiyalarının inkişaf surətinin dəyişməsi, qloballaşma və informasiya cəmiyyətətinə keçidin də sürətlənməsinə gətirib çıxarmışdır. Təbii ki, bu proseslər cəmiyyətdə kütləvi informasiya vasitələrinin (KİV) rolunu daha da artırmışdır. Sivilizasiyanın müasir tipi iqtisadiyyata və sosial-siyasi həyata təsir edərək, KİV qarşısında yeni vəzifələr müəyyən etmişdir. Bu tarixi missiya qlobal şəbəkəyə malik olan TV-nin əhatə dairəsinin genişliyi və yeni ünsiyyət şəraitində auditoriyaya spesifik təsiri ilə bağlıdır. Sosial psixologiyaya görə, cəmiyyət həyatında TV-nin rolu yüksəldikcə, onun tamaşaçıların şüuruna, düşüncəsinə və ictimai davranışına da təsiri xeyli dərəcədə artır.

Hazırda ekran bir çox problemlərin müzakirə olunduğu ictimai tribunaya çevrildiyindən və jurnalist fəaliyyətində mətbuat azadlığı prinsipləri əsas tutulduğundan TV yaradıcılığında etik meyarlar problemi də xeyli aktuallaşmışdır. Digər tərəfdən, TV jurnalistikası publisist yaradıcılığın elə spesifik sahəsidir ki, burada müxtəlif məzmunlu və formatlı proqramların hazırlanması zamanı olduqca fərqli situasiyalar yaranır. Məhz bu dəyişkən situasiyalarda aparıcı və ya reportyor müəyyən olunmuş etik qaydaları mütləq gözləməlidir. Ona görə də etik normalar probleminin öyrənilməsi çağdaş jurnalistika elminin və ekran publisistikasının ən aktual mövzularından biridir.

Bu gün Azərbaycanda bir tərəfdən yeni ictimai-iqtisadi sistemə keçid, digər tərəfdən isə ideologiyanın və sosial-mənəvi dəyərlərin dəyişməsi mətbuatın və teleradionun rolunu xeyli artırmışdır. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin milli mətbuatımızın 130 illiyinə həsr olunmuş mərasimdəki çıxışında dediyi kim, «indi fikir plüralizmi və söz azadlığı şəraitində fəaliyyət göstərən mətbuat qarşısında dördüncü hakimiyyət missiyasını yerinə yetirmək üçün böyük imkanlar yaranmışdır». [1] Lakin təəssüf ki, bəzən mətbuatın və teleradionun bu missiyanın süni yolla mütləqləşdirilməsi və söz-mətbuat azadlığı ilə yanaşı ictimai məsuliyyətin dərk olunmaması ortaya ciddi etik problemlər çıxarır.

---

[1]«Azərbaycan» qəzeti, 22 iyul 2005.

Təsadüfi deyildir ki, son illərdə nəşr olunmuş elmi araşdırmalarda[1] jurnalist yaradıcılığında etik meyarlar məsələsi müasir mətbuatın və teleradio sisteminin əsas problemlərindən biri kimi nəzərdən keçirilir. Demokratik cəmiyyət quruculuğu yolunu seçmiş Azərbaycanda azad mətbuatın, o cümlədən telejurnalistikanın inkişafı üçün yardım göstərən Avropa media institutlarının apardığı maarifləndirmə işində, verdikləri tövsiyələrdə, bununla bağlı Azərbaycan dilinə tərcümə edilən sorğu kitablarında və digər ədəbiyyatlarda da[2] jurnalist yaradıcılığında etik problemlərə xüsusi diqqət yetirilir. Bütün bunlar audiovizual jurnalistikada - televiziya yaradıcılığında etik əsasların mükəmməl, dərin elmi şəkildə araşdırılmasını zəruri edir.

Əlbəttə, prinsip etibarilə TV-də jurnalist yaradıcılığının etik cəhətləri demokratik cəmiyyətdə söz və mətbuat azadlığı ilə birbaşa bağlıdır. Demokratiyanın vəd etdiyi bu azadlıq isə həmişə hüquqi əsaslara və dərk olunmuş ictimai məsuliyyətə söykənir. Bu mənada TV jurnalistikası sahəsində hüquq və etikanın xeyli təmas nöqtələri vardır. Bəzən onların oxşar təsir obyektlərinə malik olması, hər ikisinin normativ xarakter daşıması, auditoriyaya hüquq normaları ilə etik prinsiplər arasındakı fərqi görməyə mane olur. Həqiqətən də, hər iki halda müxtəlif situasiyalar zamanı jurnalistlərin fəaliyyətini nizamlayan mütləq və standart qaydalar tətbiq olunur. Lakin hüquqi normaların mənbəyi – dövlət təsisatları, ilk növbədə, qanunvericilik hakimiyyəti orqanlarıdır. Etik standartlar isə peşəkar jurnalist birliklərinin özü tərəfindən formalaşdırılır. Müvafiq olaraq əgər hüquqi nizamlayıcılar kənardan – hökumətin qərarı ilə gətirilirsə halda, etik nizamlayıcılar, bir qayda olaraq, korporasiya daxilində razılaşmanın nəticəsidir. Yəni etik qaydalar, adətən nüfuzlu jurnalist təşkilatları tərəfindən hazırlanır və media qurumları, o cümlədən telekanallar bunu öz fəaliyyətlərində əsas kimi götürürlər. Bəzən də iri telekompaniyalar öz etik qaydalarını hazırlayır[3] və öz fəaliyyətlərində bu qaydalara əsaslanırlar.

Belə bir mühüm cəhəti nəzərə almaq lazımdır ki, müasir ictimai həyatda baş verən hadisələrdə, insanın mənəvi inkişafında əxlaqi əsasların rolu dönmədən artır. Əxlaqi sərvətlərin və davranış taktikasının məsuliyyətlə seçilməsi, şəxsiyyətin mənəvi keyfiyyətlərinin yüksəkliyi və

---

[1] Məhərrəmli Q. Televiziya jurnalistikasının əsasları. Bakı.,BDU nəşr.,2005, 144 s.; Məmmədli C. Müasir jurnalistika. Bakı,BDU nəşr., 2003,434 s.; Rüstəmov A. Jurnalistika. Bakı, BDU nəşr.,2005,307 s.; Əlizadə Y., Məhərrəmli Q. Azərbaycan efiri: tarix və müasirlik. Bakı,Nurlan, 2006,184 s.
[2] Jurnalist etikası, 2000; Şərqi Avropa jurnalistləri üçün sorğu, 2001.
[3] Məhərrəmli Q. Televiziya jurnalistikasının əsasları. Bakı,BDU nəşr., 2005,144s.

etibarlığı, onun varlığının və ünsiyyətinin humanistləşdirilməsi adamların ictimai şüurunu misli görünməmiş qüvvə ilə məşğul edən problemlərdir. Bu mənada əxlaq haqqında təlim olan etika cəmiyyətinin inkişafına təsir edən istənilən elm sahələri ilə, o cümlədən jurnalistika ilə qovuşur. Məhz buna görə də mətbuatda jurnalist etikasının fəlsəfi aspekti müxtəlif elmi araşdırmalarda bu və ya digər şəkildə araşdırılmış, bu mövzuda ayrı-ayrı kitablar, metodiki vəsait, proqram və məqalələr[1] çap edilmişdir. Lakin bunlarla yanaşı TV jurnalistikasında etik meyarlar mövzusu indiyədək kompleks şəkildə tədqiq edilməmiş, telejurnalist yaradıcılığında etik normalar məsələsi arzu olunan səviyyədə araşdırılmamışdır. Xüsusən ictimai-siyasi verilişlərdə jurnalist-aparıcı işi və informasiya proqramlarında reportyor davranışı, bu proqramlarda etik normaların pozulması ayrıca tədqiqat obyektinə çevrilməmiş, ümumi formada etik prinsiplərin müəyyənləşdirilməsi sistemli şəkildə aparılmamış, Azərbaycan teleekranlarında bu prinsip və normaların bir sıra hallarda pozulması halları və səbəbləri öyrənilməmişdir. Bu baxımdan TV yaradıcılığının etik meyarları mövzusunda apardığımız araşdırma həm jurnalistikanın inkişafı, həm də mətbuat azadlığı şəraitində ictimai məsuliyyətin dərk edilməsi baxımından böyük aktuallıq kəsb edir.

**Tədqiqatın predmeti**. Dissertasiyanın predmetini birbaşa Azərbaycan teleməkanını formalaşdıran, mülkiyyət formasına görə bir-birlərindən fərqlənən telekanalların verilişləri təşkil edir. Araşdırmada təxminən 10 illik bir dövrdə (1995 - 2005-ci illər) efirə getmiş 300-dək müxtəlif məzmunlu proqram tədqiq edilmişdir. Əsasən, publisistik səciyyə daşıyan bu proqramların əksəriyyəti ekran yaradıcılığının etik normalarını öyrənmək baxımından araşdırma üçün zəngin material vermişdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Əsas məqsəd geniş tamaşaçı auditoriyasına və ictimai psixologiyaya güclü təsir imkanlarına malik olan TV-də etik normaların təzahürü problemlərinin araşdırılması ilə bağlıdır. Bu mövzunu işləyərkən qarşıya qoyulan əsas məqsəd beynəlxalq telejurnalistika təcrübəsində qəbul edilmiş etik norma və prinsiplərin istər yaradıcı tərəfinin, istərsə də müxtəlif səviyyələrdə (yerli, beynəlxalq) qəbul edilmiş kodeks və qanunvericilikdə təsbit edilməsi formalarının Azərbaycan TV yaradıcılığında öz əksini necə tapması məsələlərini nəzərdən keçirmək, Qərb ölkələrinin bu sahəyə aid təcrübəsindən ölkə

[1] Məmmədli C. Müasir jurnalistika. Bakı, BDU nəşr., 2003,434 s.; Jurnalist etikası. Bakı,Yeni nəsil, 2000,248 s.; Məhərrəmli Q, Televiziya jurnalistikasının əsasları. Bakı, BDU nəşr., 2005; 307 s.; Əliyev V. Beynəlxalq jurnalistikada etik normalar və Azərbaycan mətbuatı. Bakı, Nurlan, 2006, 126 s.

teleməkanının necə yararlandığını araşdırmaqdır. Həmin məqsədə nail olmaq təqdim edilən dissertasiya işində qarşıya aşağıdakı konkret vəzifələr qoyulmuşdur:

- söz və mətbuat azadlığı kontekstində TV yaradıcılığı üçün vacib olan ümumi etik normalar sistemini müəyyənləşdirmək;
- etik normalara yiyələnməyin jurnalist üçün son dərəcə vacib peşə keyfiyyəti olduğunu vurğulamaq;
- ekran yaradıcılığında özünü göstərən hüquqi və etik normaların qarşılıqlı əlaqəsini araşdırmaq;
- telejurnalistikada, ilk növbədə informasiya proqramlarında etik normaların məzmun və mahiyyətini konkret faktlar əsasında araşdıraraq aşkara çıxarmaq;
- Azərbaycan TV məkanında etik normaların və dürüstlük, tamlıq, qərəzsizlik kimi əsas etik prinsiplərin pozulması hallarını araşdırmaq və səbəblərini müəyyənləşdirmək;
- teleyaradıcılıqda etik meyarların gözlənilməsinə dair dünya təcrübəsinin Azərbaycan TV məkanında, xüsusən ictimai-siyasi proqramlarda necə gerçəkləşdirilməsi prosesini araşdırmaq;
- televiziya proqramları yaratmağın etik meyarlar sistemini və onun əsas xüsusiyyətlərini müəyyənləşdirmək;
- televerilişin hazırlanması zamanı və kamera qarşısındakı ünsiyyət prosesində ictimai məsuliyyətin və etik normaların qarşılıqlı əlaqəsinin üzə çıxarma;

Bundan başqa ekran yaradıcılığı və jurnalist fəaliyyəti cəmiyyət qarşısında məsuliyyətlə birbaşa bağlı olduğu üçün bu problemin araşdırılmasına da diqqət yetirilmiş, aparıcının kamera qarşısında davranışı və etik normalar, şəxsi həyata müdaxilənin yolverilməzliyi, həmçinin ekstremal şəraiti ekranda işıqlandırmağın etik prinsiplərinin üzə çıxarılması da əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

**Tədqiqatın elmi-nəzəri və metodoloji əsası**. Tədqiqat, əsasən təsviri metodla aparılmış, yeri gəldikcə, struktur, funksional təhlil metodlarından da istifadə edilmişdir. Teleyaradıcılığın etik norma və prinsiplərinin qanunvericilikdə təsbiti məsələsi nəzərdən keçirilərkən, ümumi formada bu norma və prinsiplərin müəyyənləşdirilməsi aparılarkən, onların pozulmasına dair konkret faktlar nəzərdən keçirilərkən müqayisə və təhlil üsullarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** televiziya yaradıcılığında etik normaların sistemli şəkildə ilk dəfə elmi araşdırmaya cəlb edilməsi ilə bağlıdır. Bu baxımdan dissertasiyada TV yaradıcılığında etik normalar sisteminin müəyyənləşdirilməsinə dair təqdim olunan müddəaları elmi yenilik saymaq

olar. Araşdırmada bir çox ölkələrin KİV qurumlarının etik kodekslərinin müqayisəsi əsasında professional jurnalist etikasının konkret prinsipləri müəyyənləşdirilmişdir. Bu prinsiplərin çoxu barədə indiyədək bəhs edilməmiş, mətbuat azadlığı şəraitində bu prinsiplərin telejurnalistika təcrübəsində təzahürü elmi səviyyədə araşdırılmamışdır. Xarici ölkə təcrübəsində, eləcə də Azərbaycan qanunvericiliyində etik prinsiplərin təsbiti, bir növ onların hüquqi prinsiplərə çevrilməsi də ilk dəfə bu dissertasiyada araşdırılır, bir çox etik prinsipin jurnalistin əməl etməyə borclu olduğu hüquqi prinsipə çevrilməsi məsələləri tədqiq olunur. Eyni zamanda ilk dəfədir ki, rəqabət şəraitində fəaliyyət göstərən ölkə televiziyalarında etik normaların və prinsiplərin pozulması halları elmi tədqiqat işinin predmetinə çevrilir və konkret nümunələr əsasında elmi araşdırmaya cəlb olunur. Dissertasiyada həmçinin, etik normalara əməl olunması baxımından tamaşaçı auditoriyasının TV-yə nə dərəcədə güvənməsi problemi də nəzərdən keçirilmişdir ki, bu da indiyədək elmi araşdırma mövzusu olmamışdır.

**Tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti**. Araşdırma işində ekranda jurnalist işinin etik normalar probleminin, demək olar ki, bütün əsas nəzəri məsələlərinə toxunulmuş, eyni zamanda bu norma və prinsiplər müxtəlif aspektlərdən nəzərdən keçirilmiş, o cümlədən problemin sosial psixologiya, fəlsəfə və hüquqla bağlılığı şərh olunmuşdur. Eləcə də ölkə TV-lərində etik normaların necə gerçəkləşdirilməsi problemi araşdırılmışdır. Bu zaman ekranda istər hər hansı problemin işıqlandırılma rakursu, aparıcı-jurnalist davranışı, ünsiyyət, dil-üslub normalarının, istərsə də etik prinsiplərin pozulma hallarına dair konkret misallar gətirilmiş və təhlil edilmişdir.

Dissertasiya işiinin nəticələrindən «Jurnalistikaya giriş», «Jurnalist etikası», «Jurnalist sənətkarlığının əsasları», «Televiziya jurnalistikasının əsasları» kimi fənnlərin, həmçinin «Azərbaycanın müasir KİV sistemi» ixtisas kursunun tədrisində istifadə etmək olar ki, bu da xeyli dərəcədə tədqiqatın praktik əhəmiyyətini müəyyən edir.

**Tədqiqatın aprobasiyası**: Dissertasiyanın mövzusu Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin Elmi şurasında müəyyənləşdirilmiş, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən Əlaqələndirmə Şurasında təsdiq edilmiş, televiziya radiojurnalistikası kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın əsas məzmunu və elmi müddəaları prof. Ş. Hüseynovun 80 illik, «İrşad» qəzetinin, və «Füyuzat» jurnallarının 100 illik yubileylərinə həsr olunmuş elmi-praktik konfransın materiallarında, Bakı Dövlət Universitetinin və AMEA-nın Beynəlxalq elmi-nəzəri jurnallarında, dərc edilmişdir.

**Tədqiqatın strukturu**: Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş mənbələrin, elmi-nəzəri ədəbiyyatın siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **giriş** hissəsində mövzunun aktuallığı, tədqiqatın məqsəd və vəzifələri, mövzunun işlənmə dərəcəsi, tədqiqatın obyekti, tədqiqatın metodoloji əsası, elmi yeniliyi, tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti, tədqiqatın aprobasiyası və quruluşundan bəhs edilmişdir.

**«Telejurnalistika və etik normalar: konseptual struktur»** adlanan birinci fəsildə problemin mahiyyəti və əsas konseptual cəhətləri araşdırılır. Burada ekran yaradıcılığında etik normalarla hüquqi normaların qarşılıqlı əlaqəsi iki elmin qovşağında nəzərdən keçirilir, deontologiyanın bu aktual probleminin əsas müddəaları araşdırılır, eyni zamanda telejurnalistika və etik normaların məzmunu, ekran yaradıcılığında etik meyarların gözlənilməsinə dair dünya təcrübəsinin Azərbaycan teleməkanında necə gerçəkləşdirilməsi araşdırılır.

*"Televiziyada hüquqi və etik normaların qarşılıqlı əlaqəsi"* adlanan birinci yarımfəsildə **t**eleviziyanın cəmiyyət qarşısında sosial məsuliyyətlə yanaşı, həm də hər bir tamaşaçı, fərd və şəxsiyyət qarşısında etik məsuliyyətindən söz açılır. Bu baxımdan qeyd olunur ki, dünyanın demokratik ölkələrində TV yaradıcılığında etik normaların gözlənilməsi və ekran əsəri yaratmağın etik meyarlarının müəyyənləşdirilməsi ciddi zərurətə çevrilmişdir.

Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi, ölkəmizin hüquqi-demokratik cəmiyyət quruculuğu yoluna qədəm qoyması, ictimai həyatda söz və fikir azadlığının bərqərar olması, azad mətbuatın yaranması, təşəkkülü və inkişafı, alternativ televiziya kanallarının yaranması medianın bütün sahələrində, o cümlədən TV jurnalistikasında hüquqi və etik tənzimləmə problemini meydana çıxarmışdır. Belə bir müddəa şübhə doğurmur ki, bəşəri dəyərlərin üstünlük verildiyi cəmiyyətlərdə mətbuat azadlığı demokratiyanın əsas göstəricisi, onun tərkib hissəsidir. [1] Bu mənada ölkəmizin müstəqilliyinin bizə bəxş etdiyi ən mühüm ictimai sərvətlərdən biri məhz söz və mətbuat azadlığı olmuşdur. Buna görə də söz azadlığı uğrunda mübarizə cəmiyyətin inkişaf tarixini müəyyən edən amil kimi qiymətləndirilir.[2]

Təbii ki, mətbuat azadlığının xaotik prosesə çevrilməməsi üçün bu sahədə müəyyən hüquqi tənzimləmə də labüddür. Ona görə də demokratik

---

[1] Прохоров Е. П. Журналистика и демократия. Москва,Аспект-Пресс. 2003, 248 стр.
[2] KİV sahəsində qanunvericilik. Bakı, AJMK, 2001, 168 s.

dövlətlər söz və fikir azadlığının genişlənməsi və düzgün məcrada inkişafı üçün mətbuatın hüquqi tənzimlənməsinə daim diqqət yetirmiş, ilk növbədə onun qanunvericilik bazasını möhkəmləndirmək qayğısına qalmışlar.

Demokratiya yolunda ilk addımlarını atan Azərbaycan da qısa müddətdə KİV-in hüquqi bazasını yaratmaq yolunda uğurlu addımlar atmışdır. Azərbaycan Respublikasının KİV haqqında qanunvericiliyi Azərbaycan Respublikasının Kosntitusiyasından, «KİV haqqında», «Televiziya və radio yayımı haqqında», «Müəlliflik hüququ haqqında», «Reklam haqqında», «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında», «İctimai televiziya və radio yayımı haqqında», «Məlumat almaq azadlığı haqqında» Qanunlardan və digər normativ aktlardan ibarətdir.

Bunlardan başqa mətbuat azadlığına əngəl olan dövlət senzurası ləğv edilmişdir. Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin 1998-ci il avqustun 6-da «Azərbaycan respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında» imzaladığı fərman ilə KİV üzərində senzuraya son qoyulmuşdur.

Azərbaycanın dünya ilə, ilk növbədə beynəlxalq təşkilatlarla təmasları da ölkəmizdə mətbuat azadlığının inkişafına kömək etmişdir. Məsələn, Azərbaycan Avropa Şurasına daxil olduqdan sonra söz azadlığına dair Ümumavropa müqavilələrinə imza atmışdır. Bu müqavilədə, həmçinin ölkəmizin qoşulduğu İnsan Hüquqları və Avropa konvensiyasının sənədlərində söz və mətbuat azadlığına dair müddəalar ön plana çəkilmişdir. Jurnalistika ictimai bir institut olaraq insanlara, cəmiyyətə xidmət göstərdiyinə, insanla ünsiyyətdə olduğuna görə hər gün öz fəaliyyətində müxtəlif problemlərlə üzləşir. Mövcud təcrübə göstərir ki, bu problemlərdən biri etik prinsiplərlə bağlıdır.

Təbii ki, KİV-in, o cümlədən onun ən çevik qolu olan TV-nin hüquqi bazasının yerli və beynəlxalq qanunvericiliklə tənzimlənməsi həm yazılı, həm də elektron jurnalistikanın inkişafı üçün güclü zəmin yaratmışdır.

Ekran yaradıcılığının etik normaları praktik fəaliyyətin nizamlayıcısı kimi bütövlükdə jurnalist etikasının konturlarını müəyyənləşdirməyə imkan verir. Lakin etik normalar anlayışı hüquqi normalarla sıx bağlı olduğundan biz mütləq KİV-də hüquqi və etik normaların qarşılıqlı əlaqəsi məsələsini nəzərdən keçirməlilir.

Bəzi alimlər haqlı olaraq bu fikirdədirlər ki, hüquq və etika xeyli təmas nöqtələrinə malikdirlər. İlk növbədə onların eyni (yaxud bənzər) təsir obyektləri – kütləvi informasiya istehsalı və mübadiləsi iştirakçıları arasında yaranan münasibətlər var. Mətbuatda etik normalara riayət olunmasına ictimaiyyətin təşəbbüsü ilə yaradılan orqanlar, ekranda isə bu

normaların gözlənməsinə müvafiq dövlət orqanları, məsələn, Azərbaycan Respublikasında Milli Teleradio Şurası nəzarət edirlər. Dünya televiziya sistemində özünə yer tutmağa başlayan ictimai yayımda isə bu nəzarət funksiyası həm də Yayım Şurasının üzərinə düşür.

TV yaradıcılığı sahəsində peşə etikası birdən-birə yox, ekran sənətinin dirçəlişi ilə eyni vaxtda, paralel inkişaf edərək tədricən təşəkkül tapmışdır. Ona görə də çəkinmədən demək olar ki,TV yaradıcılığının öz əxlaqı, öz etik normalar sistemi vardır. Telejurnalistika inkişaf etdikcə bu etik normalar da tədricən dəyişmiş və xeyli cilalanmışdır.

*"Ekran yaradıcılığında peşə etikasının məzmunu" başlıqlı ikinci yarımfəsildə* ekran yaradıcılığının spesifikası, burada jurnalist-aparıcı işinin özünəməxsusluğundan bəhs edilir. Burada ilk növbədə jurnalistlərin özlərinin işləyib hazırladıqları və kənardan daxil edilən davranış qaydalarından danışılır. [1] Qeyd olunur ki, etik nəzarət korporativ özününəzarətlə yanaşı, mətbuata münasibətdə kənar təsisatlarla da həyata keçirilir. Məsələn, informasiya sahəsində Ombudsman təsisatını, yaxud informasiya məsələləri üzrə məhkəmə palatasını ona görə yaradırlar ki, onlar cəmiyyətin məlumat almaq azadlığını təmin etsinlər. Daxili səbəblərə görə ictimai təşkilatların, yaxud teleradioyayımı üzrə qurumun Milli Teleradio Şurasının formalaşdırdığı strukturun qəbul etdiyi qərara görə yaradılan mətbuat məsələləri üzrə Müşahidə komitələri də bu sırada durur.

Qəzet səhifələrindən fərqli olaraq ekranda etik normaların pozulması daha tez nəzərə çarpır. Məsələn, ucuz reklam xatirinə müğənnilərlə müğənnilər, müğənnilərlə jurnalistlər arasında, eləcə də sənətçilər, yüksək çinli məmurlar arasında yaşanan qalmaqallar gündəmdən düşmür.

Ekran yaradıcılığı təcrübəsi göstərir ki, ilk növbədə TV-də çalışan jurnalistlərin davranışı, sosial statusu, yaradıcılığın etik qaydaları müəyyənləşdirilməlidir. Məsələn, burada çalışan jurnalist bilməlidir ki, o, ictimaiyyətin informasiya almaq hüququndan başqa hər hansı digər məqsədə xidmət etməməlidir. Eyni zamanda, ilk növbədə reportyorlar və aparıcılar da daxil olmaqla bütün jurnalistlər informasiya toplayarkən və efirə verərkən ünsiyyətdə olduqları insanların ləyaqətinə, hüquqlarına və şəxsi həyatına hörmətlə yanaşmalıdır.

TV yaradıcılığının etik normaları dolğun məzmununu ilk növbədə jurnalistin sosial statusunda, onun müxtəlif münaqişəli vəziyyətlərdə,

---

[1] Лазутина Г.В. Профессиональная этика журналиста. Москва, Аспект пресс, М., 2000, 208 стр.; Прохоров Е. П. Журналистика и демократия. Москва, Аспект-Пресс. 2003, 248 стр.; Прохоров Е.П. Введение в теорию журналистики. Москва, РИП-холдинг, 1998, 310 стр.

mürəkkəb situasiyalarda, o cümlədən ekstremal şəraitdəki davranışında, həmçinin informasiya proqramlarında, bu proqramda gedən materialların çatdırılma tərzində, peşə standartlarına nə dərəcədə əməl olunmasında özünü göstərir. Cəmiyyət qarşısında vicdanla xidmət etmək gerçək jurnalistikanın əsasıdır. Jurnalistlər insanların şəxsi ləyaqət hissini tapdalamamalı, bunların özəl həyatına müdaxiləyə yol verməməlidirlər və s.[1]

Təbii ki, etik normaların məzmunu geniş tamaşaçı auditoriyasına təqdim olunan çoxsaylı verilişlərdə özünü daha çox göstərir. Bu mənada proqramlarda gözlənilməsi vacib olan əsas etik meyar *qərəzsizlik* prinsipidir. Əslində dünya televiziyalarının proqram siyasətinin, xüsusən xəbərlər və ictimai-siyasi münasibətlər sahəsindəki siyasəti qərəzsizlik və tarazlaşdırma prinsipidir. Ancaq bu prinsipə riyazi düstur, yaxud ciddi qaydalar dəsti kimi də yanaşmaq olmaz. Həmin prinsip çox vaxt radio və televiziya nümayəndələrinin işini qiymətləndirmək üçün bir meyar kimi götürülür. Qərəzsizlik dolğunluğa, dəqiqliyə və obyektivliyə əsaslanır.[2] Ona görə də bu meyarlara uyğun olmayan heç bir məlumat (video-, audio-, yazılı və ya başqa) verilişdə istifadə oluna bilməz:

– təqdim olunan məlumat materiallarının mənbəyi dəqiq müəyyənləşdirilməlidir;

– məlumat materialları bütün təbliğat və reklamdan təmizlənəcək dərəcədə, tam həcmdə redaktə olunmalıdır;

– yazılı məlumat materialları ssenariyə daxil edilməyə bilər, ancaq onlardan yalnız adi yoxlama proseduruna cəlb ediləcək materialın qaynağı qismində istifadə oluna bilər;

– məlumat materiallarının qismən, yaxud tam istifadə edilməsi və ya onlardan istifadə olunduğu halda redaktə edilməsi barədə heç bir öhdəlik götürülməməlidir;

– mahiyyətinə görə mühüm ictimai önəm daşıyaraq, mübahisə doğuran məsələyə aid olan və hər hansı ilkin maraq güdülmədən, translyasiya material qismən də tamaşaçıya təklif olunan məlumat səciyyəli video, yaxud audiomateriallar əvvəlcədən telekanal rəhbərliyi tərəfindən təsdiqlənmədən istifadə edilə bilməz;

---

[1] Məhərrəmli Q. Televiziya jurnalistikasının əsasları. Metodik vəsait. Bakı., BDU nəşr., 2005, 144 s.; Məmmədli C. Azərbaycanda jurnalistikanın müasir inkişaf meylləri. Bakı, BDU nəşr., 2008, 59 s.; Лазутина Г.В. Основы творческой деятельности журналиста Москва, Аспект-Пресс. 2000. 208 стр.; Прохоров Е. П. Журналистика и демократия. Москва, Аспект-Пресс. 2003,248 стр.

[2] Məhərrəmli Q. Televiziya jurnalistikasının əsasları. Metodik vəsait. Bakı.BDU nəşr.,2005, 144 s.

– konkret situasiyada mühüm ictimai önəm daşıyaraq, mübahisə doğuran məsələyə aid olan və alınmasında maraqlı sayılan məlumat səciyyəli video, yaxud audiomateriallar kimin razılığının alınması zərurətinin meydana gəlməsindən asılı olaraq, əvvəlcədən TV rəhbərliyi ilə razılaşdırılmalıdır;

– mühüm ictimai önəm daşıyan, amma mübahisə doğuran məsələyə aid olan, audiotoriya üçün maraqlı sayılan, yaxud sayılmayan məlumat səciyyəli video, yaxud audiomateriallar bu materialların istifadə edildiyi verilişdə öz qaynağı (mənbəyi) ilə eyniləşdirilməlidir. TV təcrübəsində tez-tez hazırlıqsız (spontan) müsahibələr götürülür. Lakin etik normalar bir çox hallarda, xüsusən bədbəxt hadisələrin və başqa faciəli durumların qurbanları, yaxud onların qohumları ilə münasibətlərdən imtina olunmasını tələb edir. Amma burada da müəyyən istisnalar var. Hər bir gözlənilməz halı əhatə edəcək həm sərt, həm də möhkəm qaydaları ifadə etmək mümkün olmasa da, diqqətə yetirilən müddəalar, ümumən, bənzər müsahibələrə tətbiq edilə bilər:

– belə müsahibələrdən mütləq qaçmaq lazımdır. Yalnız açıqlanan material üçün çox önəmli olanda, məsələn, baş verənlərə aydınlıq gətirmək zərurəti yarananda, yaxud indən belə faciəli durumdan qaçmağa yardım edəcək şərtləri bildirəndə, həmin müsahibələrə yol vermək olar;

– belə müsahibə xahişiylə üz tutub, redaksiyaya (telekanala) müraciət edən şəxsdən müsahibə götürərkən təmkinli olmaq lazımdır;

– bütün zahiri və psixoloji əlamətlərinə görə sarsılmış vəziyyətdə olan şəxsdən, xüsusən ruhi gərginlik keçirən fərddən müsahibə götürmək olmaz.

– Vətəndaşdan razılıq almayınca, reportyor müsahibə götürməməlidir.

Araşdırmanın ikinci fəsli **«Televiziya yaradıcılığında etik meyarların formalaşması»** adlanır. Bu fəsildə, əsasən informasiya proqramları hazırlamağın etik prinsipləri, jurnalist araşdırmaları və beynəlxalq etik prinsiplərin Azərbaycan teleməkanında öz əksini necə tapması problemləri, jurnalistin ekranda davranış tərzi və etik normalar məsələsi tədqiq edilir.

İkinci fəslin "*Televiziya proqramları yaratmağın əsas etik prinsipləri*" başlıqlı birinci yarımfəslində rəqabət şəraitində teleproqramların formalaşması araşdırılır.

Bu rəqabətdə televiziyanın proqram siyasəti, auditoriyanın maraqları nəzərə alınmaqla efir vaxtının səmərəli bölüşdürülməsi çox mühüm rol oynayır televiziya mütəxəssislərinin fikrincə, əsas proqram tipləri dairəsinə bunlar daxildir: informasiya, aparıcı analitiklərin şərhləri və hava haqqında məlumat, idman, ticarət yenilikləri ilə müşayiət olunan yerli ümumdövlət,

beynəlxalq xəbərlər proqamları, lokal, dövləti, yaxud beynəlxalq xarakter daşıyan diskussiyaların, söhbətlərin, çıxışların, şərhlərin, forumların, dəyirmi masaların daxil olduğu ictimai məsələlər proqramları; iqtisadi proseslər, biznes, marketinq və kənd yerlərində həyatın digər sahələrinə dair problemlərə toxunan proqramlar; musiqi verilişlərini, teatr tamaşalarını, oyunları və s. əhatə edən əyləncəli proqramlar, əyləncəli-musiqili verilişlər, teatr tamaşaları, xəbələr və oyunlar şəklində dini proqramlar; idman, tədris proqramları və s.[1] Televiziya yaranandan bəri göstərilən bu sahələr üzrə proqram tipləri və formatları geniş şəkildə inkişaf etmişdir. Hətta Qərb telekanallarında bu formatlar özünü o qədər müxtəlif çeşidlərdə göstərmişdir ki, indi hansısa yeni bir proqram formatı «kəşf» etmək elə də asan məsələ deyil».[2] Müasir dünyanın aparıcı telekanalları məhz bu tələblərə ciddi əməl etdiyinə görə məşhurlaşıb. Məsələn, «qərəzsizlik və dəqiqlik BBC World jurnalist yaradıcılığının əsasını təşkil edir. Bu televiziyada bir sıra hadisələrin işıqlandırılması üçün dəqiq işlənmiş təlimat mövcuddur».[3]

*"Xəbər verilişləri və etik normalar"* başlıqlı ikinci yarımfəsildə televiziyanın xəbər proqramlarının dünya təcrübəsində formalaşmış etik prinsiplərindən bəhs edilir. Sovet dönəmində çox ciddi senzura nəzarəti olduğuna görə həm mərkəzi, həm də yerli TV-lərdə konkret streotiplərə əsaslanan informasiya proqramları fəaliyyət göstərmiş və ümumiyyətlə bu sahədə xüsusi jurnalist axtarışlarına, eləcə də etik məqamlar barədə danışmağa ehtiyac olmamışdır. Müasir dövrdə informasiya cəmiyyətinin əsas atributlarından birinə çevrilmiş televiziyanın sürətli inkişaf meyilləri onun siyasi, təşkilati, hüquqi, iqtisadi, elmi, ideoloji əsaslarına, o cümlədən elektron KİV və etik normalar probleminə diqqəti qat-qat artırmışdır.

Bu məsələlərin Böyük Britaniya, ABŞ, Almaniya və s. inkişaf etmiş ölkələrdə çoxdan dövlət proqramı səviyyəsində qarşıya qoyulması və ardıcıl həlli elektron informasiya vasitələrinin cəmiyyət həyatındakı roluna, texniki və yaradıcılıq imkanlarının yüksəlməsinə əsaslı təsir göstərmişdir.

Çoxsaylı elmi araşdırmalar və ən müxtəlif ölkələrdə aparılan rəy sorğuları belə bir nəticəyə gəlməyə əsas vermişdir ki, hər bir televiziya kanalının cəmiyyətdə nüfuz qazanması və rəqabətə davamlılığı, ilk növbədə informasiya siyasətinin düzgün qurulması xəbər buraxılışlarının peşəkarlıq səviyyəsi ilə etik prinsiplərə ciddi əməl olunması ilə şərtlənir.

---

[1] Məhərrəmli Q. Kino, televiziya, radio terminləri. İzahlı lüğət. Bakı, Azərbaycan Milli Ensiklopediyası nəşr., 2002, 352 s.

[2] Попцов О. Телевидение на завтра. «Литературная газета», 21 марта 1996..

[3] Орлова В.В.. Глобальные телесети новостей на информационном рынке. Москва, РИП-холдинг, 2003, 218 стр.

“Televiziya rəqabəti xəbərlər üzərində qurur. İnformasiya proqramında uduzan televiziya başqa növ proqramlarla rəqabətə tab gətirə bilmir”.[1] Xüsusilə kommersiya kanalları xəbərləri birinci əhəmiyyətli teleməhsul hesab edir.

Dissertasiyanın “*Beynəlxalq etik meyarlar Azərbaycan teleməkanıda”* başlıqlı üçüncü yarımfəslində bildirilir ki, Televiziyanın vicdanlılıq prinsipi – hər kəsin peşə fəaliyyətinə vicdanla yanaşmasını tələb edir.

Bir çox hallarda telekanalların etik prinsipləri bir tərəfdən özünəməxsus keyfiyyət kəsb edirsə, digər tərəfdən qeyd etdiyimiz standartlar, sınaqdan çıxmış təcrübə faktları əsasında formalaşır. Əslində ayrı-ayrı telekanalların yaradıcılıq prinsipləri, bütövlükdə dünya jurnalistikasının təcrübəsini özündə əks etdirir.

Televiziyada xəbər yaradıcılığının müəyyən bu məqamlarda necə hərəkət etmək, hadisələri hansı yöndə, hansı prinsiplərlə işıqlandırmaq sahəsində artıq xeyli dəqiqləşmiş prinsipləri formalaşmışdır. Müntəzəm olaraq baş verən və baş verəcəyi labüd olan hadisələr mövcuddur ki, onların işıqlandırılmasında beynəlxalq təcrübə vardır. Bu sırada seçki kompaniyaları, vətəndaş iğtişaşları, ictimai rəy sorğuları, terrorizm, mətbuat konfransları, ayrı-ayrı informasiya mənbələri kimi qəbul edilən adamlarla müsahibələr, jurnalist araşdırmaları, seks səhnələri, böhtan, şəxsi həyat məsələləri, məhkəmə prosesləri və s. qeyd etmək olar.

Dissertasiyanın **«Telejurnalistin peşə etikası və cəmiyyət qarşısında məsuliyyət»** adlanan üçüncü fəslində jurnalistin ictimai məsuliyyəti, onun kamera qarşısında müsahibləri, veriliş iştirakçıları və tamaşaçılarla ünsiyyəti prosesində etik normaları necə gözləməsi məsələləri araşdırılır. Bu fəsildə həmçinin verilişlərdə şəxsi həyata müdaxilənin yolverilməzliyi, həmçinin ekstremal şəraiti işıqlandırmağın etik əsasları araşdırılır. “*Telejurnalistin ictimai məsuliyyəti*” adlı birinci yarımfəsildə telejurnalistin peşə davranışı onun cəmiyyət qarşısında öz borcunu necə yerinə yetirməsinin aydınlaşdırır. Telejurnalistin etik normalara yetərincə əməl etməsi çox da asan bir iş deyil. Lakin bu qaydalarla hesablaşmaq teleproqramın reytinqini qaldıra biləcək amillər sırasındadır.

Bir çox tədqiqatçıların gəldiyi nəticəyə görə, etik normalara əməl etmək qanunlara tabe olmaqdan çətindir.

Düzdür, bəzən bu yanaşma jurnalistə o qədər də sərf etmir. Təsadüfi deyil ki, redaksiya qarşısında üzərinə ciddi öhdəliklər götürən Amerika

[1] Məmmədli C. Müasir jurnalistika. Bakı, BDU nəşr., 2003, 434 s.

telejurnalistləri də peşə etikasına tam əməl etməyi o qədər sevmirlər.[1] Lakin bu da var ki, «mətbuat azadlığını Amerika cəmiyyətində xüsusi üstün mövqeyi olan kütləvi informasiya vasitələrinin öhdəsinə düşən konkret vəzifələrdən təcrid olunmuş şəkildə təsəvvür etmək mümkün deyil».[2]

Müasir cəmiyyətdə mətbuatın, TV-nin ictimai məsuliyyəti getdikcə daha çox hiss edilir. Çünki «Cəmiyyət üzvlərinə onları maraqlandıran məsələlər barədə məlumatlandırmaq TV-nin başlıca vəzifəsi və sosial missiyasıdır». Bu vəzifəni yerinə yetirərkən telejurnalist peşə davranış qaydalarına əməl etməyə borcludur. Ümumiyyətlə, jurnalistin və xüsusi olaraq telejurnalistin peşə etikasının mənbələri hansılardır? «Ən azı iki belə mənbə var: ümumi əxlaq nəzəriyyələri; rəsmi və qeyri-rəsmi media kodeksləri».[3] Bunları öyrənmək və öz fəaliyyətində tətbiq etmək jurnalistin, reportyorun vəzifəsidir. Ümumiyyətlə, peşə etikası telejurnalistin cəmiyyət qarşısında məsuliyyətini ehtiva edir.

İkinci yarımfəsil " *Ekranda müsahiblə davranış tərzi*" adlanır. Televiziya nəzəriyyəsi sahəsində tanınmış alimlərin qeyd etdiyi kimi, telejurnalistin etik davranış normaları müsahibə zamanı daha çox üzə çıxır. Müsahibədə etik normaların çox müxtəlif məqamları vardır. Dəvət olunmuş qonağın qoyulacaq problemə və bəzi suallara bələdliyi, bu barədə onun əvvəlcədən məlumatlandırılması etik cəhətdən özünü doğruldur. BBC modelinə görə, «telejurnalist özü müsahibəyə hazırlaşdığı kimi belə bir şansı müsahibin özünə də yaratmalıdır. Belə məqamda vaxtın daralması problemini bir dəfə xatırlatmaq olar. Lakin ANS TV-nin fəaliyyət konsepsiyasında göstərildiyi kimi, onu tez-tez təkrar edib "iştirakçıların zəhləsini də tökmək olmaz".

"*Şəxsi həyata müdaxilənin yolverilməzliyi"* başlıqlı üçüncü yarımfəsildə nnsanın şəxsi həyatına KİV-in müdaxiləsi onun şərəf və ləyaqətini təhqir edən, narahatlıq yaradan məqamlardan danışılır. Şəxsi toxunulmazlıq vətəndaşların konstitutsiya hüquqlarından biridir. Qanuna əsasən, öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. «Şəxsi həyat insanın ailə, məişət və intim münasibətlərdə həyat fəaliyyətini əhatə edir».[4] Jurnalist şəxsi həyatla bağlı məlumatları toplamaq və yaymaq barədə vətəndaşın özündən və ya onun qanuni nümayəndəsindən icazə

---

[1] Jurnalist etikası. Bakı, Yeni nəsil, 2000, 248 s.
[2] A.Free and Responsible Press; Report of the Commision on Freedom of the Press. M.Hutehins, Chair. Urbana: unit of illinois Press, 1956, s. 74-78.
[3] Kütləvi İnformasiya vasitələri. Müasir kommunikasiyaya giriş. Bakı, Xəzər Univrtsiteti nəşr., 2005, 603 s.
[4] KİV və məhkəmələr. Bakı, XIX maddə İB, 2003, 150 s.

almağa borcludur. Bəzən jurnalistlər ictimai marağa söykənərək şəxsi həyata müdaxilənin əsaslandırmağa cəhd göstərirlər. Qanun isə belə bir əsas tanımır.

Hal-hazırda Azərbaycan qanunvericiliyində vətəndaşların şəxsi həyatı haqqında informasiyanı mühafizə edən bir sıra normalar mövcuddur. Bu normaların əsasında, şübhəsiz ki, konstitutsiya müddəaları dayanır.

*"Ekstremal şəraiti işıqlandırmağın etik əsasları"* adlı dördüncü yarımfəsildə ekstremal şəraitdə jurnalistin davranışı, etik normalara əməletmə prinsipləri bu günümüzün aktuallığı kimi göstərilir. Çünki son bir əsr ərzində dünyada ciddi şəkil alan ekstremal şəraitlər, təəssüf ki, getdikcə çoxalmaqdadır. Telejurnalistikanın dürüstlük, tamlıq, qərəzsizlik kimi meyarları mühüm ictimai-siyasi hadisələrin və ekstremal şəraitin işıqlandırılması zamanı daha mühüm zərurət kəsb edir.[1] Çünki ekstremal şərait, telejurnalisti özü də hiss etmədən, etik normaları pozmaq faktına sövq edə bilər.

Jurnalistlər üçün «qaynar nöqtələr»də iş adlandırılan belə situasiyalarda reportyor özünü necə aparmalıdır. Bu məsələlər indi telejurnalistikanı ciddi şəkildə düşündürməkdədir[2].

Beləliklə, ekstremal hallardan, sülh zamanı hərbi obyektlərdən hazırlanmış jurnalist yazılarında xeyli yanlışlıqlara, böhtanlara, təhriflərə, təhqirlərə, digər daha ciddi qanun pozuntularına yol verilir. Dövlətin "İnformasiya Doktrinası»na çevrilən bir çox məqamlarda normalar pozulur. Sərhədsiz Jurnalistlər Təşkilatının yaydığı xəbərə görə, dünyada 100-dən çox jurnalist faktları təhrif etdiyinə görə həbs cəzası çəkir. Bu müddətdə 500-dən çox adam bu iş üstündə öldürülüb. Baş vermiş hadisələrin 9 faizində günahkarlar tapılmamışdır"[3].

Belə bir nəticəyə gəlmək olar ki, ekstremal telejurnalistika Azərbaycan mediasında yeni sahədir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinədək bu istiqamətdə xüsusi təcrübə olmayıb. SSRİ-nin dağılmasından sonra, 90-cı illərin əvvəllərində müharibə bölgələrində işləyən reportyorların mənimsədiyi yeni peşə ilk vaxtlar ekstremal jurnalistika adlanmırdı. «Konflikt zonası», «hərbi əməliyyatlar bölgəsi», «təmas xətti» kimi terminlər də sonradan meydana gəlmişdir. Heç bir təcrübəsi və «qaynar nöqtə»də işləmək anlayışı olmayan Azərbaycan jurnalistlərinin böyük bir qismini də cəbhə xəttinə aparan heç də peşə borcunu yerinə yetirmək istəyi olmamışdı. Onlar məsələyə vətəndaşlıq

---

[1] Məhərrəmli Q. Televiziya jurnalistikasının əsasları. Bakı: BDU nəşr., 2005, s. 144.
[2] Məhərrəmli Q. Televiziya jurnalistikasının əsasları. Bakı: BDU nəşr., 2005, s. 144.
[3] Shook F. Television news writing. New York-London, 2006, s.142.

prizmasından yanaşıb, Qarabağa yollanmağı və döyüşlərdə öz qələmləri ilə iştirak etməyi mənəvi borcları hesab etmişdilər. Azərbaycanda ekstremal jurnalistikanın inkişafı «sıfır»dan başlayıb, desək yanılmarıq. Lakin cəmi bir neçə ildə keçilən yol peşəkar reportyorların yetişməsinə səbəb olmuşdur.

Tədqiqatın **nəticə** hissəsində isə araşdırma zamanı əldə olunan əsas konkret müddəalar əks etdirilmişdir.

**Dissertasiya mövzusuna dair müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur.**


1. Keçid dövründə televiziyanın rolu // Elmi axtarışlar, VII toplu. Bakı, 2002, s.80-83
2. İctimai televiziyanın mahiyyəti, // Elmi axtarışlar, VII toplu. Bakı, 2002, s.164-166
3. Telejurnalistikanın yaradıcılıq prinsipləri peşə etikasının tərkib hissəsi kimi “Azərbaycanın KİV sisteminin aktual problemləri”. Professor Ş.Hüseynovun 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransın materialları. Bakı, 2005,s.107-111
4. Telereportajlarda şəxsi həyata müdaxilənin yolverilməzliyi. “İrşad-100”. // “İrşad” qəzetinin 100 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransın materialları. Bakı, 2006, s.192-197
5. Televiziya jurnalistikasında etik meyarlara dair dünya təcrübəsi // Dil və ədəbiyyat (Beynəlxalq elmi-nəzəri jurnal), № 6(60), Bakı, 2007, s.232-233
6. Правовые и профессионально-этические нормы поведения азербайджанских журналистов. // Научный журнал "Актуальные проблемы гуманитарных и естественных наук. Москва, 2009, апрель, №4. стр.132-135.
7. Взаимосвязь правовых и этических норм на телевидение. // International Scientific and Practical Conference “Space and time-coordinate sistem of human society” held in the period of 30 March-03 April, 2012 in London (UK).
8. Ekran yaradıcılığında peşə etikasının məzmunu. // “Jurnalistikanın nəzəri konsepsiyaları və mətbuat təcrübəsi” Beynəlxalq elmi-nəzəri konfransın materialları. s.144-159
9. Общественная ответственность тележурналиста. // “Межкультурные Коммуникации" международное научно-периодическое издание. Тбилиси, 2013, №21, стр.136

10.Televiziya proqramlarında başlıca etik prinsiplər. // AMEA Əlyazmalar İnstitutu ,Filologiya məsələləri jurnalı №9, Elm və təhsil nəşriyyatı, Bakı, 2013
11.Xəbər verilişləri və etik normalar (STT və BBC-nin timsalında) // AMEA Əlyazmalar İnstitutu , Filologiya məsələləri jurnalı №9, Elm və təhsil nəşriyyatı, Bakı, 2014

12.Telejurnalistin ictimai məsuliyyəti. // Dil və ədəbiyyat (Beynəlxalq elmi-nəzəri jurnal) -4(88) , Bakı, 2013

**У.Б.Абдуллаева**

# ЭТИЧЕСКИЕ НОРМЫ ТЕЛЕВИЗИОННОГО ТВОРЧЕСТВА

## Резюме

Диссертация состоит из введения, трех глав, заключения и списка источников и использованной научной литературы. В Азербайджане, как в стране, которая выбрала путь интеграции в международную арену, в конституции есть закон о свободе слова и прессы, что является признаком демократии. Исследования показывают, что в странах, где свобода слова и прессы юридически обеспечивается, журналисты уделяют большое значение этическим нормам, процессу саморегулирования посредством кодексов этих норм. Напротив, этические нормы носят неформальный характер в странах, где позиция к свободе слова и прессы более жесткое. Этот момент, актуализировающий тему исследования, показывает себя наряду с печатной прессой, в электронной СМИ, в том числе и в подготовке телевизионных программ.

В диссертации в экранном творчестве рассматривается взаимодействие этических и правовых норм, исследуются главные особенности этой актуальной проблемы. В то же время выясняются суть тележурналистики и этических норм, и как в экранном творчестве реализуется мировая практика в Азербайджанском телепространстве с соблюдением этических критериев. Теоретические положения подтверждаются конкретными примерами, которые приводятся из телевизионной практики, и в первую очередь из информационных программ.

Диссертант, выступая из опыта экранного творчества, показывает, что в целях достижения эффективности этических норм, прежде всего, должны определяться поведение журналиста, работающего на телевидении, его социальный статус, этические нормы его творчества. Собирая информацию и передавая его в эфир, все журналисты должны относиться с уважением к достоинству, правам, личной жизни человека, с которым они находятся в контакте,

соблюдать фундаментальные этические нормы, такие как профессиональная добросовестность, принципы профессии, общественный интерес, неприкосновенность частной жизни, беспристрастность и т.д. Потому что журналист несет ответственность перед обществом (и телевидением). Эта ответственность, прежде всего, предусматривает передачу точной информации о важных фактах и событиях, во время, в принятых в рамках этических принципов.

**U.B.Abdullayeva**

## ETHICAL STANDARDS OF TELEVISION CREATIVITY

## SUMMARY

Scientific thesis ‘Ethical standards of television creativity’ consists of the introduction to dissertation, three parts, conclusion and a list of the scientific practical literature used.

In Azerbaijan a country which had chosen a way of integration to the world community, notions of freedom of speech and press which are reflection of democracy, are advocated well enough. The Constitution of the country guarantees freedom of expression and press.

Nevertheless, facts say that adherence of the local journalists, including TV journalists, to the ethical standards became a special issue. Researches also show that in countries which give great legal provisions to the freedom of speech and press journalists attach yet more importance to their own self-regulation process. In countries with more strong position of laws towards freedom of speech on the contrary, ethical standards are just about to appear.

From this point of view, mutual relations of TV legal and ethic norms are investigated in the dissertation which also underlines that awareness of TV journalists of legal norms is prevailing over their awareness in ethics norms sphere.

In the dissertation mutual correlation of ethical and legal standards in the television creativity is observed through the cross point of both sciences. Dissertation searches most important points of this actual problem of deontology. Moreover, it studies content of TV journalism and ethical standards and a way to apply world experience in the sphere of respect to ethical criteria in the television creativity in the TV space of Azerbaijan.

Experience of television creativity shows that behavor of TV journalists and their social status shall define ethic rules of creativity. For example, journalist here should realize that he has to serve for the right of public to receive information only and for nothing more. Meantime, while compiling and presenting information all journalists, including reporters and presenters should respect dignity, rights, welfare and private life of all persons they are in touch with.

That is why studies in this sphere are to be increased and special trainings for TV journalists are to be organized. Experience also shows that as ethical standards include very complicated professional and creative rules, our country should also use international experience to work out its theoretical aspects. Such practical and theoretical literature based on the international experience shall inculcate on TV journalists such fundamental issues like professional decency, responsibility, professional conscience, dignity, moral climate, public interest, inviolability to private life, impartiality and others. TV journalist should know that professional duty is a notion which embraces relations of professional and moral standards. Anyone who has chosen a profession of journalist bears responsibility before a society as a whole, irrespective of his employment in definite mass media, publishing body or framework rules set by a definite TV channel for its officers. This responsibility first of all provides for timely presentation of important facts and developments for society in truthful manner and in the accepted frame of ethical standards.

Due to its mission and peculiarity television news programs require greater and thinner approach to the principles of professional ethics. Those rules are to be especially observed during the journalistic investigations and analysis of developments.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ А ЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**УЛЬВИЯ БАЗИМ гызы АБДУЛЛАЕВА**

# ЭТИЧЕСКИЕ НОРМЫ ТЕЛЕВИЗИОННОГО ТВОРЧЕСТВА

**5720.01- Журналистика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по филологии**

**БАКУ - 2013**